# VI. MƏTBUAT, TV VƏ JURNALİSTİKA PROBLEMLƏRİ

## 1.YAZ VƏ DÖYÜŞ: AXI SƏN JURNALİSTSƏN

Günümüzün reallıqları fonunda mətbuatın (eləcə də radio və tv-nin, saytların) problemlərindən danışmaq nə qədər asandırsa, bir o qədər də çətindir. Doğrudur, burada bir qədər məntiqə zidd kimi formal təəssürat yarana bilər. Axı asan olan eyni zamanda necə çətin olur?

Mətbuat dördüncü hakimiyyətdir – deyirik. Mətbuat bu missiyanı yerinə yetirə bilirmi? Əlbəttə, ritorik sualdır. Hər birimizə aydındır ki, mətbuat nə üçün bu missiyanı yerinə yetirə bilmir. Bunun min bir səbəbi var. Əslində Qulu Məhərrəmlinin də məqsədi *"Gələcəyə ön söz"* kitabında kifayət qədər geniş yer verdiyi mətbuat, tv və jurnalistika problemləri haqqında elə bu səbəbləri araşdırmaq üçün ən müxtəlif yönümlərdən məsələyə münasibət bildirməkdir.

Biz yeri gəldikcə, professorun qaldırdığı problemləri göstərəcək, onun məsələyə yanaşma tərzinə münasibətimizi bildirəcək və demək olar ki, bütün hallarda haqlı mövqeyini təqdir edəcəyik. Amma professorun nəzərə almadığı bir məqamı elə bəri başdan çatdırmaq istərdik. Mətbuatın acı durumunun əsas səbəblərindən biri də heç bir yazı savadı olmayan, elementar səviyyədə peşə hazırlığı keçməyən şəxslərin də kütləvi şəkildə mətbuat aləminə axınla daxil olmasıdır. Bunların bir çoxu təsisçi və baş redaktor səlahiyyətlərinə sahiblənməklə bərabər özləri kimi saysız-hesabsız çöldən gəlmələrə də müxtəlif ünvanlı vəsiqələr payladılar. Beləliklə, mətbuatın mənəvi cəhətdən sarsıntı dövrü başladı. Bu məsələ mənim yaddaşımda ölkəmizdə olub-keçmiş daha bir hadisəni də oyatdı. 70-ci illərdə məktəblərin qapısını açıb heç bir pedaqoji təhsili, hətta heç peşə təhsili olmayan xarratları, dülgərləri, sürücüləri, montyorları əmək və texniki sahə üzrə müəllim kimi işə götürdülər. Təbiidir ki, müəllim peşəsinin incəliklərindən xəbəri olmayan bu adamlar məktəbdə pedaqoji işin səviyyəsinə ciddi mənəvi zərbə vurdular. Müqəddəs müəllim adını hörmətlə çəkən şagird dilemma qarşısında qalmışdı. Dülgərə də, sürücüyə də müəllim deməyə məcbur idi.

Doğrudur, bu proses müəyyən yeniliklərlə əvəzləndi, indi artıq bu məsələlər tarixə qovuşub. Ancaq təqribən eyni üsulla mətbuata gələn adamlar hələ də jurnalist vəsiqəsi ilə qapıları döyür, öz yaramaz davranışları ilə jurnalistikanın hörmət və nüfuzunu ayaqlar altına atmaqda davam edirlər. İndi onların bir çoxunun siması da dəyişib. Hətta yüksək peşə təhsili olanlar belə jurnalistikanın xəbər daşıyıcısı olmaq missiyasını pul qazanmaq missiyasına çeviriblər. Beləliklə, mətbuat aləminə yeni termin gəldi – reket jurnalistikası. Professor Qulu Məhərrəmli Azərbaycanda az-çox tanınan və qələmi ilə, sözü ilə və eyni zamanda parlaq nitqi ilə tanınan praktik jurnalist olmaqla bərabər, həm də jurnalistika nəzəriyyəçisidir. Artıq dəfələrlə qeyd etdiyimiz kimi o, jurnalistika məsələləri üzrə ilk elmlər doktoru, professordur. Yazdığı kitablar jurnalistika fakültələrində dərslik və dərs vəsaitləri kimi öyrənilir.

Demək, onun ciddi publisistik yaradıcılığında mətbuat və jurnalistika məsələləri ilə bağlı geniş və əhatəli yazması, gündəlik mətbuatla təması və bu təmasın təsiri altında yaranan fikir və mülahizələrini oxucularla bölüşməsi təbii ehtiyacdan yaranır. Təsadüfi deyildir ki, "Gələcəyə ön söz" kitabına da o, bu mövzuda xeyli yazı daxil etmişdir. Yazıların başlıqlarına diqqət edək: *"MDB-də mətbuat azadlığı Avropanın nəyinə lazımdır?"*, *"Müstəqil mətbuat: illuziyaların sonunda"*, *"Virtual jurnalistika dərsi"*, *"Anna Politkovskayadan Xədicə İsmayılovadək"*, *"İnternet fahişələri"*, *"Bayram oldu, heç bilmədik neyləyək"*, *"Medianın ictimai tənqidçi missiyası"*, *"Susdurulmuş televiziya"*, *"Tv-lərin pərişan halı"*, *"Sosial mediamız, jurnalistikamız və əxlaqımız"*, *"Mətbuat dərdlərimizi niyə demir?"*, *"Qabiliyyət imtahanının qabiliyyətsiz yönləri"*, *"Teleməkanımızın parlaq rəngi – ANS"*, *"Həqiqəti yazmaq hissi"*... Qulu Məhərrəmli açıq yazan müəllifdir. Sözünü də kifayət qədər ustalıqla, amma açıq və prinsipial şəkildə deməyi bacarır. Onun üçün meyar yazdığı hər hansı bir məsələdə həqiqətdir.

*"MDB-də mətbuat azadlığı Avropanın nəyinə lazımdır?"* (27.04.2013) məqaləsini müəllif Kiyevdə mətbuat problemlərinə həsr olunmuş konfransdan aldığı təəssürat əsasında yazıb. Yazının əvvəlindəcə konfransın əhatə miqyasına, həmçinin Azərbaycandan olan nümayəndələrin bu konfransda iştirakı ilə bağlı bəzi məqamlara aydınlıq gətirir: *"Bu həftənin üç gününü yaşıl xiyabanlarına və küçələrinin genişliyinə görə dünyanın ən maraqlı şəhərlərindən sayılan Kiyevdə oldum. Müstəqil Azərbaycan mətbuatının patriarxları – Arif Əliyev və Elçin Şıxlı ilə birlikdə Ukrayna paytaxtında media azadlığı problemlərinin müzakirə edildiyi toplantıya qatılmışdıq. Avropa Komissiyasının himayəsi ilə keçirilən möhtəşəm tədbir günümüz üçün aktual olan bu problemin konkret mənada – MDB-yə daxil olan Ukrayna, Belarus, Moldova, Azərbaycan, Gürcüstan və Ermənistanda öz əksini necə tapmasını araşdırırdı. Eyni zamanda toplantı adıçəkilən ölkələrdə mətbuat azadlığının indeksini müəyyənləşdirmək üçün də metodika hazırlamalı idi"*. Müəllifin başlığa çıxartdığı sualın özü də əslində probleme bələdçidir. MDB məkanından gəlmiş nümayəndələr burada öz ölkələri ilə bağlı problemləri necə şərh edəcəklər? Və bu şərhin arxasında nə dayanır? Yəni görünməyən tərəflər nədən ibarətdir? Açığı, yazını bütövlükdə oxuyanda məndə belə bir təəssürat yarandı ki, adları çəkilən MDB ölkələrinin hamısında mətbuatla bağlı problemlər bir-birinə çox bənzəyir və bunu müəllifin özü də qeyd edir: *"Problem hədsiz dərəcədə həssas, müzakirəsi isə gərəkli olduğundan iştiraçılar dil qəfəsə qoymadan danışır, dərdlərini deyir, suallar verir, mübahisə edir, bir-birlərinin sözünü kəsir, bəzən razılaşır, çox vaxt da hərə öz fikrində qalırdı. Hərənin ağzından bir avaz gəlməsinə baxmayaraq onların hamısını eyni fikir birləşdirirdi: hökümətlər jurnalistlərin azadlığına qarşı çıxır, mətbuatı iqtisadi cəhətdən sıxır, tənqidi boğur, məlumatı çətinləşdirir. Belə vəziyyət isə təbii ki, insanları ruhdan salır, demokratik dəyişikliklərə inamı azaldır. Ona görə də idealda düşünülən mətbuat azadlığı fikri qalmışdı bir tərəfdə, hər kəs öz ölkəsində gördüyünü çağırırdı"*. Müəllif get-gedə problemin nüvəsinə doğru nüfuz edir. Mətbuat və hakimiyyət məsələləri, mətbuat nümayəndələrinin ictimai tənqidçi kimi müstəqillik imkanları və bir çox digər məsələlər çözülür.

Professor mətbuatın azad ola bilməməsinin kökündə duran səbəbləri aşkarlayır. Tənqiddən qorxan hər hansı bir məmur açıq sözlə qarşılaşan kimi mətbuatın qəddarına çevrilir, düşməni olur. Beləliklə, mətbuat müxtəlif tərəflərdən sıxıntılara məruz qalır. Jurnalistlərin azad araşdırmaçı kimi tədqiqatlarının yolu kəsilir. Bununla da korrupsiyaya uğramış məmur *"azad nəfəs alır"*. Qeydlərinin sonunda azad mətbuatdan danışan Avropa və MDB məkanı jurnalistlərinin konfransı zamanı Ukraynada tanınmış telekanal, demək olar ki, susdurulur. Mətbuat isə buna az qala seyirçi qalır. Bu da mətbuatın nə qədər azad olduğuna münasibətin göstəricisidir.

*"Müstəqil mətbuat: illuziyaların sonunda"* (20.07.2013). Müəllif bu qeydlərinə də üslubuna uyğun ikinci yarımbaşlıqla aydınlıq gətirir: *"Yoxsa mənəvi iflasın başlanğıcındayıq?"*. Bəziləri Azərbaycanda mətbuatın vəziyyətini şərh edərkən ABŞ və Almaniya mətbuatını görk üçün müqayisəyə çəkir. Guya ki, həmin ölkələrdə də mətbuatın vəziyyəti heç də bizimkindən yaxşı deyil. Doğrudur, müəllif Azərbaycanda mətbuata dövlət fondu vasitəsi ilə göstərilən yardımları da yada salır, ancaq bu yardımların mətbuatı necə ələ baxan hala saldığını qeyd etməyə bilmir. Hər kəsə aydındır ki, çox sağlam niyyətlə yaradılmış kütləvi informasiya vasitələrinə dəstək fondunun özü də korrupsiyaya yuvarlandı. Bu da onu göstərir ki, vaxtında araşdırmaçı jurnalistlər onun işinə nəzarət edə bilmədilər. Özünü tam nəzarətdən kənar görən Vüqar Səfərli bütün fondu öz istəklərinə tabe etdi. Çünki ictimai nəzarət sarıdan arxayınçılığı vardı. O kimə istəyirdi, ona da yardım ayırırdı. Təbiidir ki, yardım alanların ictimai nəzarət gücü elə həmin gündən ölmüş olur. Professor Qulu Məhərrəmli bu qeydlərinin sonunda vicdan amilini yada salır. Və nəticə olaraq belə başa düşmək olur ki, bir çox problemlərin yaranmasına səbəb susmuş vicdandır.

*"Virtual jurnalistika dərsi"* (27.07.2013) yazısına müəllif ABŞ professoru T.Emersondan belə bir epiqraf gətirir: *"Medianın ələ alındığı və aşkarlığın qadağan olunduğu yerdə ağlın əvəzinə güc işləyir. Çünki bunlar hərəkətsizliyə və kütlüyə gətirib çıxarır və cəmiyyət özünün problemlərini həll etməkdən məhrum olur"*. Doğrudur, müəllif yazısının əvvəlində jurnalistlərə ev verilməsi ilə bağlı vəziyyətə münasibət bildirməsini yada salır və bunun kimlərə nə üçün xoş gəlmədiyini diqqətə çəkir: *"Mən də ev olayının müsbət humanitar aksiya olduğunu, amma bunun jurnalistin peşə etikasına uyğun gəlmədiyini, perspektiv üçün bəzi mənəvi problemlər yaradacağını bir ağız bildirmişdim. Deyəsən, mənim hətta belə yumşaq yanaşmam millət vəkili, hörmətli Aydın Mirzəzadənin xoşuna gəlməmişdi. Odur ki, saytların birində yazdığı məqalədə ev məsələsində onun kimi vəcdə gələrək sevinmədiyimə görə məni qınamış və nəyə görəsə adımı bir müxalifət qəzeti ilə qoşalaşdırmışdı. Həmin yazını oxuyandan sonra belə başa düşdüm ki, mətbuatı yəhərli at kimi arpa ilə yemləyib minib ram etmək istəyən təkcə məmurlar deyil, bir çox millət vəkilləri də jurnalistikanın həqiqi missiyasından xəbərsizdir. Ona görə də mediaya ictimai nəzarətçi deyil, üzüyola xidmətçi kimi baxanların vaxt ayırıb bu ayaqüstü jurnalistika dərsini hövsələ ilə dinləmələrini istədim"*. Professor Qulu Məhərrəmlinin bu qeydləri təkcə öz müşahidələri deyil. Mətbuatdan az-çox baş çıxaran hər kəsin müşahidəsində bütün aşkarlığı ilə görünən məsələlərdir. Ev paylanması məsələsindəki əyintilər Vüqar Səfərlini *"ağzıbirə"* apardı.

O vaxt fb səhifəmdə belə bir status yazmışdım: *"Deyirlər ki, Vüqar Səfərlinin pulunu balta kəsmir. Görəsən səbəbi nədir? Pul çoxdur, yoxsa baltanın ağzı kütdür?"*. Müxtəlif cür cavablar olsa da, demək olar ki, əsas cavablar iki yöndən gəlmişdi: pul çoxdur, yazıq balta neyləsin? Digər mövqe isə belə idi: pul nədir ki, onu balta kəsməyə, baltanın ağzı kütdür.

Hər iki halda mövcud vəziyyət kifayət qədər acınacaqlıdır. Yəni nəhəng mətbuat sisteminin gözü qarşısında dövlətin ayırdığı vəsaiti talayasan, mənimsəyəsən. Yəni pulun kütləsi bir əldə bu qədər çox yığıla bilir. İkinci hal da maraqlıdır. Yəni tədbir görməli olanın Vüqar Səfərliyə gücü çatmır, korrupsiya qarşısında gücsüz görünür. Beləliklə, Qulu Məhərrəmli kifayət qədər çılpaqlığı ilə bu məsələlərin mənəvi bazasına nüfuz edir. Jurnalistikanın əsas vəzifəsini, yəni özünün auditoriyada tələbələrə öyrətdiklərini bir daha oxucularına da xatırladır.

*"Anna Politkovskayadan Xədicə İsmayılovayadək"* (03.08.2013). Bu qeydlərin də ikinci yarımbaşlığı diqqət çəkəndir: *"Bütün vicdanlı jurnalistləri həqiqətə sədaqət prinsipi birləşdirir"*. Aforizm səviyyəsində olan mətn bir daha bizim də yadımıza gətirir ki, tək deyilik. İşdə həqiqətə sədaqət bizim üçün əməli meyardırsa, demək, bizimlə eyni mövqedə olan başqaları da var. Mənim üçün maraqlı olan bir məqam gözümü oxşadı. Demək, Avropa ittifaqında iclas salonlarından birinə Anna Politkovskayanın ad verilib. Qətllə aradan götürülən Anna Politkovskaya sanki bizim *"Monitor"* jurnalının baş redaktoru Elmar Hüseynovun taleyini yaşayıb. Hər halda bu bənzərlik bizi kifayət qədər düşündürür. Bu yazının ikinci bir qəhrəmanı da var, o da Xədicə İsmayılovadır. Xədicə İsmayılovanın başına gətirilənlər azad jurnalistikanın kifayət qədər ağır olan həyatının fraqmentlərindən biridir.

Hər halda professor Qulu Məhərrəmli ədəbi publisistikası ilə açıq jurnalistika dərsləri keçir. Burada ustalıq dərsi də var. Eyni zamanda həqiqətə güvəncli olmaq, hədəfi aydın və dəqiqi görmək təlqini də var. Və nəhayət, yalnız həqiqətin birləşdirdiyi jurnalistləri gözləyən faciəli məqamlar da istisna deyil.

*29.09.2021*

***Qulu müəllimin parlaq insani keyfiyyətlərini çoxları vurğulayır. Sadə, səmimi, ünsiyyətcil və istiqanlıdır, başqa fikirlərə açıq, koloritli adamdır, müsahibini istənilən mövzuda polemikaya həvəsləndirə bilir. Nə özündən yaşda kiçiklərə, nə də özündən vəzifədə aşağı olanlarla təkəbbürlü davrandığının şahidi olmamışam. Zəngin daxili mədəniyyəti onu ətrafdakılar üçün çox cazibədar edir, xarizması ekrandan da duyulur. Qulu müəllim işdə demokratik, azad mühit yaradan azsaylı rəhbərlərdən biridir. Bu gün bizim televiziyalarda bu model rəhbərlərə çox böyük ehtiyacımız var.***

***Sevda SULTANOVA, televiziya tənqidçisi***